**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MALİYYƏ XİDMƏTLƏRİ BAZARINDA SİSTEM ƏHƏMİYYƏTLİ BANKLARIN FORMALAŞDIRILMASI VƏ İNKİŞAFI PERSPEKTİVLƏRİ

İxtisas: 5301.01 – "Daxili fiskal siyasət və dövlət maliyyəsi"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Əliyev Vahid Ədalət oğlu**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və maliyyə institutları" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**Zahid Fərrux oğlu Məmmədov** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**Vahid Tapdıq oğlu Novruzov** |
| | İqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Ramil Məhəmməd oğlu Əliyev** |
| | İqtisad üzrə fəlsəfə doktoru<br>**İsmayıl Cəfər oğlu Həsənov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

| | | |
|---|---|---|
| **Dissertasiya şurasının sədri:** | ____________<br>İmza | iqtisad elmləri doktoru, professor<br>**Yaşar Atakişi oğlu Kəlbiyev** |
| **Dissertasiya şurasının elmi katibi:** | ____________<br>İmza | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Suqra İnqilab qızı Hümbətova** |
| **Elmi seminarın sədri:** | ____________<br>İmza | iqtisad elmləri doktoru, professor<br>**Nizami Nəcəfqulu oğlu Xudiyev** |

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son illərdə qlobal risklər və qlobal təhdidlər dünya iqtisadiyyatının bütün sahələrinə əhəmiyyətli səviyyədə təsir göstərmişdir. Belə bir şəraitdə dünya iqtisadiyyatının inkişaf proseslərində aparıcı və strateji əhəmiyyət kəsb edən istiqamətlərdən biri kimi maliyyə və maliyyə sistemi özünün mürəkkəbliyi ilə bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların formalaşdırılması və inkişaf etdirilməsi problemləri aktuallığı ilə seçilmişdir.

Dünya maliyyə böhranının təsir etmədiyi ölkə qalmamışdır və bu baxımdan, Azərbaycan da istisna təşkil etməmişdir. Düzdür, ölkəmiz özünün maksimum optimal şəkildə formalaşdırdığı və inkişaf etdirdiyi makromaliyyə sabitliyini uzun müddət qoruya bilmiş, onun acınacaqlı vəziyyətə düşməsinə yol verməmişdir. Amma, dünya enerji bazarlarında ölkəmizin əsas ixrac məhsulu olan xam neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi nəticəsində valyuta daxil olmaları öz intensivliyini azaltmış və milli valyutaya xarici təsirlər artmışdır. Bu və ya digər amillərin təsirindən 2015-ci ildə milli valyutamız – manat ikiqat devalvasiyaya məruz qalmışdır, bununla belə dövlət tərəfindən həyata keçirilən sistemli və ardıcıl tədbirlərin nəticəsində ölkədə makroiqtisadi və makromaliyyə sabitliyinin bərpası mümkün olmuş, milli valyutanın dayanıqlılığı təmin edilmiş, bank sektorunun itkiləri azaldılmış və tətbiq olunan dövlət dəstəyi mexanizmləri hesabına maliyyə-kredit sisteminin fəaliyyəti dövrün tələblərinə uyğunlaşdırılmışdır. Belə ki, Azərbaycanda maliyyə xidmətləri bazarının fəallığının təmin olunması, iqtisadi inkişaf proseslərinin intensivliyinin artırılması, ölkədə problemli kreditlərin həll edilməsi, bununla da makroiqtisadi və makromaliyyə sabitliyinə ciddi təkan verilməsi tədbirləri reallaşdırılmışdır. Xüsusilə, problemli kreditlərin həll edilməsi ölkə əhalisinin sosial-iqtisadi rifahının yüksəldilməsi ilə bərabər, bank sektorunun fəaliyyətinin sağlamlaşdırılmasına, iqtisadi fəallığın artırılmasına əlavə stimullar yaratmışdır.

Digər tərəfdən, makrosəviyyədə dövlət tənzimlənməsi mexanizmlərinin və dəstəkləyici tədbirlərin görülməsi sayəsində maliyyə xidmətləri bazarının strukturu və fəaliyyət istiqamətləri təkmilləşdirilmiş, bazar iştirakçılarının fəaliyyətlərinin sabitləşdirilməsi təmin olunmuşdur. Bank sektorunun inkişaf prosesləri sürətləndirilmiş, bankların aktivlərinin və investisiya fəaliyyətlərinin genişləndirilməsinə xüsusi önəm verilmiş, tətbiq edilən bank xidmətlərinin keyfiyyət və kəmiyyət parametrlərinin maliyyə xidmətləri bazarının tələblərinə uyğun şəkildə formalaşdırılmasına səy göstərilmişdir. Bundan əlavə, fond birjalarının, sığorta şirkətlərinin, qiymətli kağızlar bazarı subyektlərinin fəaliyyətlərinin qlobal dövrün tələblərinə əsasən təşkili və inkişaf etdirilməsinə diqqət artırılmışdır.

Lakin bütün bunlara baxmayaraq, ölkəmizdə maliyyə xidmətləri bazarının intensiv inkişafı və dayanıqlılıq problemləri qalmaqdadır və bunun üçün hələ çox işlər görülməlidir. Ölkədə mövcud maliyyə sisteminin sabitliyi, maliyyə-kredit sahələrinin fəaliyyətinin səmərəli təşkili, maliyyə axınlarının hərəkəti üzrə korporativ idarəetmə mexanizmlərinin dünya təcrübəsinə uyğunlaşdırılması, maliyyə resurslarından təyinatı üzrə istifadə olunması məsələləri daha sistemli və təkmilləşdirilmiş yanaşmaları tələb edir.

Bank sektorunun ölkə iqtisadiyyatının inkişafında rolunun artırılması, real iqtisadiyyat sektorlarına tələb olunan maliyyə resurslarının yönəldilməsi, daha əlverişli və uzunmüddətli kreditlərin verilməsi, ümumilikdə bankların və şübhəsiz, sistem əhəmiyyətli bankların kredit portfellərinin diversifikasiyalaşdırılması və risklərdən etibarlı şəkildə qorunması problemləri vardır. Bir sözlə, maliyyə xidmətləri bazarında təqdim olunan müxtəlif maliyyə-kredit xidmətlərinin, ilk növbədə bank məhsullarının əlçatanlığı, onların çeşidinin genişləndirilməsi məsələləri kifayət qədər aktuallığı ilə fərqlənirlər.

Bundan əlavə, 2020-ci ilin sentyabr ayının 27-dən başlayan 44 günlük Böyük Qarabağ Zəfərindən sonra ölkəmiz qarşısında yeni tarixi perspektivlər formalaşmış və obyektiv reallıqlar yaranmışdır. Strateji məqsəd işğaldan azad olunmuş ərazilərin ən yüksək standartlar səviyyəsində, eyni zamanda "ağıllı" texnologiyalar

əsasında dirçəldilməsidir. Yeni yaradılmış iqtisadi rayonların - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialından səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir və bütün bu qeyd olunan proseslərdə etibarlı maliyyə təminatı mexanizmlərinə, dinamik maliyyə xidmətləri bazarına və ilk növbədə çevik bank sisteminə ehtiyac vardır.

Bütün bu qeyd olunanlar, həmçinin müasir qlobal böhranların dərinləşdiyi bir şəraitdə, ölkəmizdə iqtisadi və struktur islahatlarının genişləndiyi bir dövrdə maliyyə xidmətləri bazarının intensivliyi və çevikliyinin təmin olunması, daha cəlbedici və əlçatan maliyyə xidmətlərinin hazırlanması, bazarın tələb və təkliflərinə adekvat olaraq bank xidmətlərinin göstərilməsi istiqamətində maksimum səmərəli mexanizmlərin hazırlanması və bu proseslərdə sistem əhəmiyyətli bankların aparıcı və strateji rolunun artırılması istiqamətlərinin müəyyənləşdirilməsi fundamental araşdırmaları tələb edir və bu göstərilən amillər tədqiqat işinin mövzusunun aktuallığının ifadəsidir.

Tədqiqat işində baxılan problemlər və araşdırılan məsələlər iqtisad elmində geniş şəkildə baxılan istiqamətlərdəndir və həmişə diqqət mərkəzində saxlanılan tədqiqat sahələrindəndir. Belə ki, maliyyə amili, maliyyə sisteminin səmərəliliyi, maliyyə xidmətləri bazarının intensivliyi və bu proseslərdə sistem əhəmiyyətli bankların rolu, həyata keçirdikləri mühüm funksiyalar, bunlarla bağlı problemlər bir qrup Azərbaycanlı iqtisadçı alimlər – Z.Ə.Səmədzadə, A.F.Musayev, Ə.C.Muradov, Ə.Ə.Ələkbərov, M.M.Sadıqov, Z.F.Məmmədov, A.Ş.Şəkərəliyev, B.X.Ataşov, Q.N.Manafov, E.M.Sadıqov, Ş.S.Qafarov, Ş.T.Əliyev, M.M.Bağırov, A.E.Kərimov və başqalarının elmi əsərlərində tədqiq edilmişdir. Maliyyə amilinin strateji rolu, maliyyə resurslarının axını, onların idarə edilməsi, istifadəsi, bu proseslərə nəzarətin təşkili, maliyyə vəsaitlərinin cəlbi, onların yığılması və bölüşdürülməsində bankların rolu, o cümlədən sistem əhəmiyyətli bankların funksiyaları və aparıcı maliyyə vasitəçiliyi mexanizmləri klassik iqtisadçılar: A.Smit, A.Marşall, D.Rikardo, H.P.Minski, C.M.Keyns, R.M.Solou, P.A.Samuelson, F.Modiqliyani, M.H.Miller, E.A.Seliqman və digərlərinin nəzəriyyələrində, elmi baxışlarında və əsərlərində verilmişdir.

Maliyyə xidmətləri bazarının səmərəlilik problemləri, onların intensivlik məsələləri və bu proseslərdə sistem əhəmiyyətli bankların rolunun artırılması istiqamətində bir qrup digər alim və tədqiqatçıların – V.K.Sençaqov, R.İ.Xasbulatov, O.İ.Lavruşin, T.N.Vetrova, T.V.Nikitina, S.Q.Lukin, Y.S.Stoyanova, N.D.Şimşirt və başqalarının əsərlərini qeyd etmək olar.

Eyni zamanda, son onilliklərdə qlobal təsirlərdən və xüsusilə müasir dövrdə qlobal problemlərdən yaranmış yeni çağırışlar maliyyə sisteminin daha səmərəli və işlək mexanizmlərinin hazırlanmasını, maliyyə xidmətləri bazarının dinamikliyini davamlı şəkildə təmin edən maliyyə-kredit siyasətinin formalaşdırılmasını, tənzimləmə mexanizmlərinin hazırlanaraq tətbiqini və bu proseslərdə sistem əhəmiyyətli bankların rolunun əhəmiyyətli səviyyədə yüksəldilməsini, bunlarla bağlı problemlərin müasir reallıqlardan araşdırılmasını və yeni tədqiqatların aparılmasını şərtləndirir.

**Tədqiqatın obyekti** maliyyə xidmətləri bazarı və sistem əhəmiyyətli banklardır.

**Tədqiqatın predmeti** ölkənin makroiqtisadi və makromaliyyə sabitliyində strateji əhəmiyyət kəsb edən maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların formalaşdırılması və inkişafı perspektivləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində əsas məqsəd maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların formalaşdırılması və inkişaf perspektivlərinin müəyyənləşdirilməsidir. Dissertasiya işinin başlıca məqsədinə çatmaq üçün bir qrup vəzifələrini reallaşdırılması qarşıya qoyulmuşdur:

- maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların formalaşdırılmasının nəzəri və metodoloji əsaslarının tədqiqi;
- maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübənin araşdırılması və ümumiləşdirilməsi;
- Azərbaycanda maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların rolunun təhlil olunması;

- maliyyə xidmətlərinin strukturunun genişləndirilməsi və bu sahədəki fəaliyyətin təkmilləşdirilməsi problemlərinin araşdırılması;
- ölkədə maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların əhəmiyyətini şərtləndirən amillərin təhlili və ümumiləşdirilməsi;
- maliyyə xidmətləri bazarının genişləndirilməsi ilə əlaqəli strateji hədəflər kontekstində sistem əhəmiyyətli bankların səmərəliliyinin qiymətləndirilməsi;
- müasir dövrdə maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların inkişafının genişləndirilməsinə dair tövsiyələrin hazırlanması və təkliflərin verilməsi və s.

**Tədqiqat metodları.** Tədqiqatın işinin metodoloji əsaslarının müəyyənləşdirilməsində maliyyə-kredit sisteminin aktual problemləri, maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların inkişaf etdirilməsi problemlərinə dair klassik iqtisadçıların və digər xarici tədqiqatçıların, həmçinin Azərbaycanlı alimlərin elmi əsərləri, eyni zamanda Azərbaycan Respublikasının Qanunları, ölkə Prezidentinin Fərmanları və Sərəncamları, AR Mərkəzi Bankının təsdiq etdiyi qaydalar, digər qanunlar və normativ aktlardan istifadə edilmişdir. Tədqiqat işində elmi abstraksiya, analiz və sintez, müqayisə, iqtisadi-statistik təhlil kimi tədqiqat metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin tədqiqindən alınmış elmi yeniliklər nəzərə alınmaqla, aşağıdakı əsas müddəalar müdafiəyə çıxarılır:

- müasir qlobal çağırışlar şəraitində maliyyə sisteminin işləkliyinə, dayanıqlılığına və maliyyyə xidmətləri bazarının genişləndirilməsinə yeni baxışlar və yanaşmalar tələb olunur;
- maliyyə xidmətləri bazarının səmərəlilik problemlərinin həllində sistem əhəmiyyətli banklar çoxfunksiyalı xüsusiyyətlərə malik olmaqla strateji rola malikdirlər;
- maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsində, maliyyə xidmətləri bazarının genişləndirilməsində və sistem əhəmiyyətli bankların səmərəliliyinin artırılmasında

beynəlxalq təcrübənin hər bir ölkənin bu istiqamətlərdə olan inkişaf xüsusiyyətləri ilə qarşılıqlı əlaqədə baxılması vacibdir;

- Azərbaycanın maliyyə xidmətləri bazarının yeni dayanıqlılıq elelmentlərinə və mexanizmlərinə ehtiyacı vardır və bu proseslərdə sistem əhəmiyyətli bankların əhəmiyyəti strateji xarakter daşıyır;
- Azərbaycanda bank sektorunun və sistem əhəmiyyətli bankların dayanıqlılığında və maliyyə sabitliyinin təmin edilməsində problemlər vardır və bu problemlərin həlli istiqamətində qlobal böhranlardan yaranan yeni çağırışlara uyğun mexanizmlərinin tətbiqi vacibdir;
- Yeni çağırışlar şəraitində, o cümlədən postpandemiya dövründə, işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi konteksində və strateji yol xəritəsindən irəli gələn vəzifələrin icra proseslərində ölkənin maliyyə xidmətləri bazarının dayanıqlılığının gücləndirilməsində sistem əhəmiyyətli bankların rolunun artırılması üçün məqsədli fəaliyyət proqramının hazırlanmasına və reallaşdırılmasına zərurət yaranmışdır və s.

**Dissertasiya işinin elmi yenilikləri bunlardır:**

- qlobal problemlərin artdığı bir dövrdə maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların roluna və inkişaf perspektivlərinə müasir elmi baxışlar formalaşmışdır;
- maliyyə xidmətləri bazarının inkişaf səmtlərindən yanaşmaqla, sistem əhəmiyyətli bankların səmərəliliyinə mane olan problemlər sxematik olaraq verilmiş və bunlarla bağlı metodoloji yanaşmalar müəyyənləşdirilmişdir;
- bir qrup dünya ölkələrinin maliyyə sisteminin və maliyyə-kredit xidmətləri bazarının formalaşması və inkişaf xüsusiyyətlərinin tədqiqindən çıxış etməklə, sistem əhəmiyyətli bankların bu proseslərdə strateji rolu və əhəmiyyəti əsaslandırılmışdır;
- Azərbaycanın maliyyə xidmətləri bazarının müasir vəziyyətinin kompleks təhlili aparılmaqla, mövcud problemlər açıqlanmış və inkişaf potensialı qiymətləndirilmiş, sistem

əhəmiyyətli bankların çoxfunksiyalılıq xüsusiyyətləri açıqlanmış və onların strateji rolu əsaslandırılmışdır;

- bir qrup sistem əhəmiyyətli banklarının fəaliyyət göstəricilərinin təhlili və inkişaf xüsusiyyətləri əsasında onların maliyyə xidmətləri bazarının intensivliyinə və dayanıqlılığına təsiri qiymətləndirilmiş, onların strateji funksiyalarının və xüsusiyyətlərinin blok-sxemi hazırlanmışdır;
- Azərbaycanda sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarının dayanıqlılığına təsirinin GZİT təhlili əsasında bu sahədə olan güclü və zəif tərəflər, imkanlar və təhlükələr müəyyənləşdirilmişdir;
- iqtisadi islahatlar və struktur dəyişiklikləri şəraitində ölkədə maliyyə xidmətləri bazarının fəaliyyətinin təkmilləşdirilməsini zəruri edən baza şərtlərinin blok-sxemi hazırlanmışdır;
- hazırkı reallıqlar və uzunmüddətli dövr üçün perspektivlər nəzərə alınmaqla, ölkənin maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların multiplikativ rolunun genişləndirilməsi mexanizmlərinin hazırlanması və tətbiqi əsaslandırılmışdır;
- ölkədə maliyyə xidmətləri bazarının dayanıqlılığının təmin olunması və bu proseslərdə sistem əhəmiyyətli bankların rolunun müasir dövrün tələbləri səviyyəsinə qaldırılması üçün “2025-2030-cu illərdə Azərbaycan Respublikasının maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların inkişafının sürətləndirilməsi üzrə Dövlət Proqarmı”nın qəbul edilməsi və həyata keçirilməsinin vacibliyi əsaslandırılmışdır və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın elmi-nəzəri müddəalarından və nəticələrindən maliyyə xidmətləri bazarının mövcud mexanizmlərinin təkmilləşdirilməsi və bu proseslərdə sistem əhəmiyyətli bankların rolunun səmərəliliyinin artırılması tədbirlərinin, məqsədli proqramların, strategiyaların hazırlanmasında istifadə olunması fayda verə bilərdi. Bundan əlavə, dissertasiya işinin başlıca müddəaları ali məkəblərdə “Maliyyə”, “Büdcə sistemi”, “Pul və banklar”, “Bank işi”, “Maliyyə bazarları”, “Maliyyə və investisiyalar” və s. fənlərin tədrisi prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu üzrə iddiaçının 4-ü xaricdə olmaqla, 10 elmi əsəri, o cümlədən 7 məqaləsi və 3 tezisi dərc olunmuşdur. Tədqiqatın əsas müddəaları 2017-ci ildə "Audit" jurnalında "Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri", 2018-ci ildə AMEA-nın "Elmi əsərlər" jurnalında nəşr edilmiş "Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların strateji funksiyaları və fəaliyyət prinsipləri", 2019-cu ildə "Geostrategiya" jurnalında dərc olunmuş "Azərbaycanın maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların multiplikativ xüsusiyyətlərinin mühüm aspektləri", 2020-ci ildə Moskvada çıxan "Maliyyə iqtisadiyyatı" jurnalında "Sistem əhəmiyyətli bankların Azərbaycanın maliyyə xidmətləri bazarında strateji əhəmiyyətli" adlı məqalələrində, həmçinin 30-u may 2019-cu ildə Avstriyada keçirilən Beynəlxalq Konfransda "Qlobal təsirlərin artdığı bir şəraitdə maliyyə xidmətləri bazarının sabitləşdirilməsində sistem əhəmiyyətli bankların vacibliyi" adlı və 25-26 aprel 2019-cu ildə SDU-da Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda elmi konfransda "Müasir dövrdə sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarının inkişafına təsiri" adlı tezislərində və s. verilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və maliyyə institutları" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Üz qabığı və mündəricat (2483 işarə), giriş (17065 işarə), I fəsil (93668 işarə), II fəsil (79916 işarə), III fəsil (48308 işarə), nəticə (10511 işarə) və ədəbiyyat siyahısı (25070 işarə), iş üzrə ümumi həcm 277021 işarədir. Dissertasiyanın həcmi işarə sayı şəkillər, cədvəllər, qrafiklər və ədəbiyyat siyahısı istisna edilməklə 223045 işarədən ibarətdir.

## Dissertasiya işinin strukturu

**Giriş.**

**I Fəsil.Maliyyə xidmətləri bazarinda sistem əhəmiyyətli bankların formalaşdırılması və inkişaf etdirilməsinin nəzəri-metodoloji əsasları.**

1.1. Maliyyə xidmətləri bazarının səmərəliliyinin artırılması problemlərinə nəzəri yanaşmalar.

1.2. Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların formalaşdırılmasının metodoloji xüsusiyyətləri.

1.3. Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübə.

**II Fəsil. Azərbaycanda maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların rolunun təhlili və qiymətləndirilməsi.**

2.1. Ölkədə maliyyə xidmətləri bazarının müasir vəziyyətinin təhlili.

2.2. Maliyyə-bank mexanizmlərinin səmərəliliyində sistem əhəmiyyətli bankların rolu.

2.3. Sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarının dayanıqlılığına təsirinin qiymətləndirilməsi.

**III Fəsil. Azərbaycanda maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəliliyinin yüksəldilməsi istiqamətləri.**

3.1. Ölkədə maliyyə xidmətləri bazarının fəaliyyətinin təkmilləşdirilməsini şərtləndirən amillər.

3.2 Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların multiplikativ rolunun genişləndirilməsi mexanizmləri.

3.3. Yeni çağırışlar şəraitində maliyyə xidmətləri bazarının inkişafında sistem əhəmiyyətli bankların səmərəliliyinin artırılması istiqamətləri .

**Nəticə.**

**İstifadə olunmuş ədəbiyyat siyahısı.**

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

## 1. Maliyyə xidmətləri bazarının səmərəliliyinin artırılması üzrə nəzəri əsasların tədqiqi

Burada əsas tədqiqat istiqamətləri kimi maliyyə xidmətləri bazarının səmərəliliyinin artırılması problemlərinə dair nəzəri müddəalar, müxtəlif tədqiqatçıların əsərləri, maliyyə xidmətləri bazarının inkişafı ilə bağlı məsələlər və bu bazarın inkişaf xüsusiyyətlər araşdırılmışdır. Başlıca elmi müddəa: *"Müasir qlobal çağırışlar şəraitində maliyyə sisteminin işləkliyinə, dayanıqlılığına və maliyyyə xidmətləri bazarının genişləndirilməsinə yeni baxışlar və yanaşmalar tələb olunur" götürülmüşdür.*

Maliyyənin səmərəliliyi ilə bağlı fikir və mülahizələrdə klassik iqtisadi nəzəriyyələr və baxışlar maraq doğurur. Belə ki, resurslardan və maliyyə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi vacib məsələlər kimi baxılmışdır. D.Rikardo öz yanaşmalında iqtisadi proseslərin və maliyyə vəsaitlərindən səmərəlilik problemlərinə daha çox diqqət yetirilməsini zəruri hesab etmişdir[1]. A.Marşall isə maliyyə proseslərində bir-biri ilə bağlı amillərin daha çox mövcudluğunu qeyd etmişdir[2]. "Maliyyə" ictimai istehsal prosesində, maddi nemətlərin və məhsulların yaradılmasında önəmli funksiyaları yerinə yetirir və onların real dəyəri kimi çıxış edir. Fikrimizcə, maliyyə dövlətin sərəncamında olan güclü idarəetmə mexanizmlərindən və funksiyalarından biri kimi baxılmalıdır və bunların əsasında dövlətin yaşaması və idarəedilməsi təmin olunur. Tədqiqatçı N.D.Şimşirtə görə, maliyyə sferası üç qarşılıqlı əlaqəli olan seqmentlərdən ibarətdir: *"1) makromaliyyə-pul bazarı və kapital bazarının məcmusu; 2) investisiyalar və 3) bizesin maliyyələşdiriirilməsi seqmenti"* [3]. Maliyyə və maliyyə sisteminin iqtisadiyyatda rolunun artması, iqtisadi sistemdə əhəmiyyəti, maliyyə xidmətləri bazarının səmərəliliyinin yüksəldilməsi problemləri daha fundamental araşdırılmaları və sistemli yanaşmaları tələb edir.

---

[1] Ricardo, D. On the Principles of Political Economy and Taxation, 1817, s. 179.

[2] Marshall, A. Principles of Economics: Abridged Edition. Cosimo, NY, – 2006. – p. 71

[3] Шимширт, Н.Д. Современная теория и практика финансового менеджмента на предприятии / Н.Д. Шимширт. – Томск: Изд-во Том. ун-та. –2011. – с. 11.

Bir qrup Azərbaycanlı alim və tədqiqatçıların elmi əsərlərində və yanaşmalarında maliyyənin mahiyyəti, onun iqtisadi funksiyaları, cəmiyyətdə və iqtisadiyyatda rolu, maliyyə xidmətləri bazarının formalaşdırılması, inkişaf etdirilməsi və onun səmərəliliyinin artırılması problemlərinə yanaşmalar maraq doğurur. Maliyyə resurslarına nəzarət formalarının, maliyyə axınlarının hərəkəti üzrə daha səmərəli mexanizmlərin tətbiq edilməsi məsələlərinin əhəmiyyəti xeyli artmışdır. Akademik Z.Səmədzadə qeyd edir ki: *"Dövlət idarəetmə sistemində şəffaflıq prinsipinin qorunması, büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməsi, maliyyə intizamının gücləndirilməsi vacib məsələlərdəndir"* [4]. Professor Ə.Ə.Ələkbərova görə: *"Maliyyə sabitliyini təmin etmək məqsədilə xarici ölkələrin investorlarından və onların təcrübəsindən istifadə etmək lazımdır"*[5]. Maliyyə və maliyyə sistemi ilə baxışlardan yanaşsaq, maliyyə sisteminin dayanıqlığı və işləkliyi, tətbiq olunan mexanizmlərin səmərəliliyi iqtisadi inkişaf proseslərinin intensivliyinə əhəmiyyətli səviyyədə müsbət təsir göstərir, bu proseslərin iştirakçılarının maliyyə resurslarına olan tələb və təkliflərini tənzimləyir, iqtisadiyyatın sabit və dinamik inkişafı üçün təkanverici təminat qüvvəsi kimi çıxış edir.

**2. Müasir dövrdə maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların formalaşdırılması proseslərinə metodoloji yanaşmalar.**

Bu məsələdə əsas elmi müddəa bundan ibarətdir: "*Maliyyə xidmətləri bazarının səmərəlilik problemlərinin həllində sistem əhəmiyyətli banklar çoxfunksiyalı xüsusiyyətlərə malik olmaqla strateji rola malikdirlər"*

Müasir şəraitdə dünya maliyyə xidmətləri bazarında və bank sektorunda baş verən proseslər kifayət qədər mürəkkəbliyi ilə seçilir. Xüsusilə, bankların maliyyə sabitliyinin təmin olunması və ölkənin sosial-iqtisadi inkişaf proseslərində, makroiqtisadi və makromaliyyə sabitliyinin reallaşdırılmasında onların rolunun artırılması üçün sistemli tədbirlərin görülməsinə zərurət vardır. Bu baxımdan, maliyyə

[4]Səmədzadə, Z.Ə. Dinamik inkişaf edən bir ölkədə şəffaflığın və maliyyə intizamının təmin olunması vacib şərtdir. [Elektron resurs] / http://www.samedzade.az/az/pages/183.

[5]Ələkbərov, Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə tənzimlənməsi problemləri: / İ.ü.e.d. dissertasiyasının Avtoreferatı) / – Bakı, 2007. – s. 40.

xidmətləri bazarının inkişafı ilə əlaqələri olan qlobal problemlər nəzərə alınmaqla, sistem əhəmiyyətli bankların inkişafına mane olan problemlər şəkil 1-də verilmişdir.




**Şəkil 1. Sistem əhəmiyyətli bankların inkişafına mane olan problemlərin təxmini sxemi** *(mənbə: müəllif tərəfindən hazırlanmışdır).*

Şəkil 2-də isə sistem əhəmiyyətli bankların inkişafına metodoloji yanaşmalar və prinsiplər ümumiləşdirilmişdir.




**Şəkil 2. Sistem əhəmiyyətli bankların inkişafına metodoloji yanaşmalar və prinsiplərin blok-sxemi**
*(müəllif tərəfindən hazırlanmışdır).*

Qeyd edək ki, maliyyə xidmətləri bazarının genişləndirilməsi və inkişaf etdirilməsi, bu bazarın fəaliyyət mexanizmlərinin səmərəliliyini aşağı salan problemlərin aradan qaldırılması, sistem əhəmiyyətli bankların daha geniş çeşiddə və çevik xidmətlərlə bu bazarda təmsil olunması, bazarın dinamikliyi mühüm əhəmiyyət kəsb edir[6]. Bu prinsilərin və meyarların sistem əhəmiyyətli bankların fəaliyyətində nəzərə alınması həmin bankların dayanıqlılığın gücləndirilməsində, eyni zamanda həmin bankların daha geniş çeşiddə

[6]Məmmədov, Z.F. Bank fəaliyyətinin əsasları. Bakı: Azərnəşr, – 2013. – s.67.

bank məhsulalrı – maliyyə xidmətləri ilə maliyyə xidmətləri bazarına çıxması mümkün olar[7].

**3. Qlobal risklər və təhdidlər konteksində maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların fəaliyyətinə dair beynəlxalq təcrübənin aktual aspektləri**

Burada elmi müddəa kimi irəli sürülür: "M*aliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsində, maliyyə xidmətləri bazarının genişləndirilməsində və sistem əhəmiyyətli bankların səmərəliliyinin artırılmasında beynəlxalq təcrübənin hər bir ölkənin bu istiqamətlərdə olan inkişaf xüsusiyyətləri ilə qarşılıqlı əlaqədə baxılması vacibdir".*

Bank Nəzarəti üzrə Bazel Komitəsinin hazırladığı hesabatda 22 ölkənin sistem əhəmiyyətli banklarının kapitalı və likvidliyi üzrə tətbiq etdiyi standartların qorunması və səmərəliliyi səviyyəsi verilmişdir. Görülən tədbirlər və tətbiq olunan mexanizmlər sistem əhəmiyyətli bankların fəaliyyətinə pozitiv təsir göstərmişdir. Ümumilikdə beynəlxalq maliyyə və kredit təşkilatları tərəfindən bank fəaliyyətinin nəzarətdə saxlanılması, onların risklərdən qorunması və ümumilikdə makroprudensial tənzimlənməsinin səmərəliliyinin artırılması üçün bir qrup tədbirlər və alətlər müəyyənləşdirilmişdir: 1) inzibati tədbirlər – burada kreditləşdirmənin artım tempinin tənzimlənməsi, məsələn, kreditləşdirmə artımına limitin müəyyənləşdirlməsi; 2) ümumi tənzimləmə alətləri - əsasən ehtiyatlar və kapitalla bağlıdır, məsələn, kapitalın manevrlik qabiliyyətinin artırılması, maliyyə rıçaqı əmsalının, həmçinin ehtiyatların dinamikliyi; 3) maliyyə bazarının müəyyən sektouna təsir edən alətlər – burada müəyyən sahələrə maliyyə resursların və kapitalın qoyuluşunun məhdudlaşdırılması, kapitalın formalaşması və istifadəsinə xüsusi tələblərin irəli sürülməsi; 4) likvidlik və valyuta risklərinə təsir göstərən alətlər – əsasən təmiz sabit fondlaşdırma göstəricisi; valyuta mövqeyinin açıqlığına limit; yüksək likvidlik aktivlərinin artımına istiqamətlənmə nəzərdə tutulur; 5) struktur risklərinə təsir göstərən alətlər – sistem əhəmiyyətli əlavə tədbirlər, o cümlədən kapital və likvidliyə aid olan tədbirlər, maliyyə xidmətləri bazarının strukturunun genişləndirilməsi tədbirləri; 6) maliyyə xidmətləri istehlakçılarının birbaşa məhdudiyyətlərə dair

[7] Kərimov, A.E. Kommersiya banklarının xidmət fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi problemləri: / İ.e.d., dissertasiyasının avt-rı./– Bakı,–2012.–56 s.

alətlər qeyri-maliyyə kompaniyalarının xarici borclarının məhdudlaşdırılması alətləri; fiziki şəxslərlə bağlı əmlak alqı satqısında, vergi tətbiqi aləti[8]

Cədvəl 1-də sistem əhəmiyyətli və dünya bankları sırasında ilk onluqda yerləşən iri bankların əsas göstəriciləri verilmişdir.

**Cədvəl 1**

**Sistem əhəmiyyətli və dünya bankları sırasında ilk onluqda yerləşən iri bankların əsas göstəriciləri (2023-cü ilin əvvəlinə)**

| s/s | Bankların adı | Ölkələr, yerləşdiyi ərazi | Aktivlər trln. $ | Bazar kapitallaş-ması, mlrd. $ | Kapital, mlrd. $ | Yaran-ma tarixi | əməkdaşl a-rın sayı, min nəfər |
|---|---|---|---|---|---|---|---|
| 01 | Industrial and Commerical Bank of China | Çin, Pekin | 3,51 | 226,10 | 279,53 | 1984 | 471 |
| 02 | JP Morgan Case & Co. | ABŞ, Nyu-York | 2,6 | 236,4 | 204,58 | 1799 | 242 |
| 03 | HSBC Holdings | Böyükbritaniya, London | 2,51 | 143 | 163,30 | 1865 | 236 |
| 04 | Mitsubishi UFJ Financial Group | Yaponiya, Tokio | 2,84 | 75,5 | 138,95 | 1880 | 108,4 |
| 05 | BNP Paribas | Fransa, Paris | 2,91 | 69,8 | 99,65 | 1848 | 191 |
| 06 | Royal Bank of Canada | Kanada, Toronto | 1,22 | 92,7 | 109,8 | 1864 | 81 |
| 07 | Banco Santander | İspaniya, Santander | 1,53 | 73,3 | 107,6 | 1857 | 195 |
| 08 | Commonwealth Bank of Australia | Avstraliya, Sidney | 0,973 | 124,0 | 101,2 | 1911 | 45,8 |
| 09 | UBS Group AG | İsveçrə, Sürix | 0,98 | 65,2 | 55,4 | 1862 | 59,8 |
| 10 | Itau Unibanco Holding | Braziliya, San-Paulu | 0,49 | 52,3 | 15,1 | 1924 | 94,9 |

*Mənbə: ТОП-10 крупнейших банков мира (* ***http://1tmn.ru/ratings/tmn-ratings/top-10-krupnejjshikh-bankov-mira-4146657.html).***

Cədvəl 1-in təhlilinə baxsaq görmək mümkündür ki, sistem əhəmiyyətli iri dünya banklarının önündə Çin Sənaye və Kommersiya

[8] Шакер, И.Е. Роль стандартизированного подхода к измерению кредитного риска контрагента (Базель III) в целях создания условий для экономического роста России. // Экономика. Налоги. Право. – 2019. № 3, –с. 147.

bankı yer almışdır, bu bankın aktivlərinin ümumi həcmi 3,51 trln. dollar səviyyəsindədir, biz əvvəldə də qeyd etmişdik ki, Çin banklarının aktivlərinin həcmi ABŞ banklarının aktivlərini belə üstələyir. Bu onu göstərir ki, bank sektorunda və ümumilikdə dünya maliyyə-kredit sistemində yaxın illərdə rəqabət daha da kəskinləşəcəkdir. Xüsusilə, bu iki nəhəng ölkə arasındakı münasibətlərin, o cümlədən bank-maliyyə sektorları subyektlərinin rəqabətinin daha da artacağını proqnozlaşdırmaq olar. Belə ki, transmilli banklar dünya maliyyə-valyuta sisteminin də ən mühüm subyektləri kimi xarakterizə olunurlar[9].

## 4. Azərbaycanda maliyyə xidmətləri bazarının mövcud vəziyyətinin təhlili və sistem əhəmiyyətli bankların rolunun qiymətləndirilməsi

Azərbaycanda 2005-2023-cü illərdə iqtisadiyyata kredit qoyuluşlarının dinamikası təhlil olunmuşdur və təhlildən görünür ki, 2015-ci ildən başlayaraq, ölkə iqtisadiyyatına kredit qoyuluşları azalmışdır və bu azalma hazırda 2 dəfədən çox təşkil edir. Belə ki, 2015-ci ildə ölkəmizdə iqtisadiyyata kredit qoyuluşların həcmi 21,7 mlrd. manat həcmində idisə, bu göstərici 2017-ci ildə 11,8 mlrd. manata qədər aşağı düşmüş, amma 2018-ci ildə bir qədər artaraq 13 mlrd. manat səviyyəsinə catmışdır. Maraqlıdır ki, bu dövr ərzində uzunmüddətli kredit qoyuluşlarının həcmi azalma nümayiş etdirsə də, 2018-ci ildə 2017-ci illə nisbətdə 6,9 % artım qeydə alınmışdır. 2023-cü ildə 2020-ci illə nisbətdə iqtisadiyyata kredit qoyuluşları 65,5 % artmış və 24 mlrd. manata yaxın olmuşdur  (bax: cədvəl 2).

[9] Борисов, А.Н. Транснациональные банки как важнейшие субъекты мировой валютной системы. // Национальная безопасность 2(25) – 2013. –с. 238.

**Cədvəl 2. Azərbaycanda 2005-2023-cü illərdə iqtisadiyyata kredit qoyuluşlarının dinamikası, mln.manat**

| Göstəricilər: | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyata kredit qoyuluşları, cəmi: o cümlədən: | 1440,9 | 9163,4 | 21730,4 | 16444,6 | 11757,8 | 13020,3 | 15298,2 | 14530,5 |
| *qısamüddətli* | 913,2 | 2567,1 | 5297,3 | 3478 | 2101,3 | 2695,1 | 2918,7 | 2475,0 |
| *yekuna görə faizlə* | 63,4 | 28 | 24,4 | 21,1 | 17,9 | 20,7 | 19,1 | 17,0 |
| *uzunmüddətli* | 527,7 | 6596,3 | 16433,1 | 12966,6 | 9656,5 | 10325,2 | 12379,5 | 12055,5 |
| *yekuna görə faizlə* | 36,6 | 72 | 75,6 | 78,9 | 82,1 | 79,3 | 80,9 | 83,0 |
| Vaxtı keçmiş borclar | 68,2 | 492,9 | 1508,6 | 1472,6 | 1626,7 | 1585 | 1273,1 | 893,1 |

*Mənbə: ARDSK-nın rəsmi statistik nəşrləri əsasında hazırlanmışdır. https://www.stat.gov.az/*

2021-ci ilin əvvəlində ölkəmizdə 26 bank fəaliyyət göstərmişdir və onlardan yalnız 2-si dövlət statuslu banklardan ibarətdir. Müqayisə üçün deyək ki, 2005-ci ildə bankların sayı 44 və 2015-ci ildə isə 43 olmuşdur. 2023-cü ildə isə bankların sayı 2020-ci illə nisbətdə 26-dan 23-ə düşmüşdür (bax: şəkil 3).




**Şəkil 3. Azərbaycanda bankların sayı, ilin əvvəlinə (2010-2023-ci illər). (Azərbaycan Banklar Assosiasiyasının məlumatları əsasında** *hazırlanmışdır. http://www.aba.az)*




**Şəkil 4. Azərbaycan banklaının məcmu aktivlərinin dinamikası, mln. manat, 2008-2023-cü illər**

*Mənbə: (AR Mərkəzi Bankının statistikası əsasında hazırlanmışdır http://www.cbar.az).*

Şəkil 4-də isə ölkəmizdə fəaliyyət göstərən banklarının məcmu aktivlərinin ümümi həcminin dinamikası təhlil olunmuşdur və 2008-2023-cü illərdə bankların məcmu aktivləri 4,78 dəfə artmış və 49,2 mlrd. manata yaxın olmuşdur.

Azərbaycanın bank sektorunda 2005-2023-cü illərdə məcmu kredit portfelinin göstəriciləri cədvəl 3-də verilmişdir. 2010-2020-ci illərdə bank sektorunun məcmu kredit portfelinin orta illik həcmi 10,1 dəfə artmış, 14,2 mlrd. manat səviyyəsinədək yüksəlmişdir. 2022-ci ildə isə 2020-ci illə nisbətdə məcmu kredit portfelinin həcmi 38 % artmış və 19,6 mlrd. manat olmuşdur. Bu dövrdə biznes kreditlərinin həcmi 27 %, istehlak kreditlərinin həcmi isə 53 %-ə yaxın artım təşkil etmişdir. 2023-cü ildə isə 2020-ci illə nisbətdə məcmu kredit portfelinin həcmi 18,3 % artım nümayiş etdirmişdir.

**Cədvəl 3**

**Azərbaycanın bank sektorunda 2005-2023-cü illərdə məcmu kredit portfelinin göstəriciləri, mln. man.**

| s/s | Göstəricilər | İllər | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2010 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
| 01. | *Bank sektorunun məcmu kredit portfeli,* o cümlədən: | 1401,4 | 8971,8 | 21152,0 | 11337,6 | 12628,3 | 14900,9 | 14157,0 | 16659,1 | 19594,4 | 23183,0 |
| 02. | *Biznes kreditləri* | - | - | - | 7566 | 8113 | 9032 | 8478,3 | 9740 | 10855,1 | 12616,8 |
| 03. | *İstehlak kreditləri* | - | - | - | 3772 | 4515 | 5869 | 5678,7 | 6919,1 | 8739,3 | 10566,2 |
| 04. | *Qeyri-bank maliyyə təşkilatlarının məcmu kredit portfeli* | 39,6 | 191,6 | 578,4 | 420,2 | 392,0 | 397,2 | 373,4 | 460,7 | 589,6 | 796,2 |
| 05. | *Milli valyutada kredit qoyuluşları* | 542,9 | 5865,3 | 10994,5 | 6953,6 | 8073,6 | 10000,8 | 10204 | 12696,5 | 16194,3 | 18816,1 |
| 06. | *Xarici valyutada kredit qoyuluşları* | 898,1 | 3298,1 | 10735,9 | 4804,2 | 4946,7 | 5297,4 | 4326,4 | 4423,4 | 3989,6 | 4366,8 |
| 07. | *Xarici valyutada kredit qoyuluşları, mln. ABŞ dol.* | 977,7 | 4133,5 | 6884,6 | 2825,8 | 2909,8 | 3116,1 | 2544,9 | 2603,5 | 2346,8 | 2568,7 |
| 08. | *Kredit dollarlaşmasının, %-ifadəsində* | 62,3 | 36,0 | 49,4 | 40,9 | 38,0 | 35,6 | 29,8 | 25,84 | 19,77 | 23,21 |

Cədvəl 4-də isə Azərbaycan banklarının aktivləri və cəmi kreditlərinin, əvvəldə qeyd etdiyimiz kimi 2017-2023-cü illər üzrə təhlilini verməyə səy göstərmişik və burada ölkə banklarının aktivlərinin və cəmi kreditlərinin 5 il üzrə göstəriciləri müqayisəli verilmişdir.

**Cədvəl 4**

**Azərbaycan bankların aktivləri və cəmi kreditləri, mln. man. (2017-2023-cü illər)**

| s/s | Banklar | Aktivlər | | | | | Cəmi kreditlər | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2017 | 2020 | 2021 | 2022 | 2023 | 2017 | 2020 | 2021 | 2022 | 2023 |
| 01 | Azərbaycan Beynəlxalq Bankı | 9074,7 | 8962,8 | 11483,9 | 14038,9 | 13668,2 | 1542,9 | 2609,1 | 3099,4 | 3530,6 | 5048,8 |
| 02 | Paşa Bank | 3958,4 | 5513,0 | 6408,4 | 8519,8 | 8651,4 | 1350 | 2095,0 | 2545,6 | 2728,1 | 2835,4 |
| 03 | Kapital Bank | 3240,3 | 5227,5 | 6709,5 | 7822,2 | 8659,6 | 1163,3 | 2175,9 | 2652,6 | 3157,8 | 4171,8 |
| 04 | Xalq Bank | 1792,8 | 2353,1 | 2339,4 | 2685,1 | 3082,5 | 1263,2 | 1475,1 | 1407,0 | 1740,6 | 1827,0 |
| 05 | Bank Respublika | 683,7 | 1034,0 | 1232,4 | 1584,9 | 2131,6 | 393,6 | 446,9 | 719,9 | 962,6 | 1174,2 |
| 06 | Azərbaycan Sənaye Bankı | 936,6 | 911,5 | 812,6 | 747,6 | 749,2 | 289,9 | 317,0 | 243,6 | 241,6 | 256,4 |
| 07 | Access Bank | 837,8 | 855,9 | 932,1 | 1168,9 | 1392,3 | 541,4 | 502,6 | 632,5 | 813,5 | 1013,8 |
| 08 | Rabitəbank | 706,5 | 831,0 | 1017,9 | 955,0 | 1138,4 | 193,7 | 432,0 | 474,0 | 610,9 | 721,2 |
| 09 | Unibank KB | 592,7 | 816,0 | 1038,7 | 1440,6 | 1590,7 | 319,5 | 567,3 | 739,2 | 889,6 | 1047,7 |
| 10 | Premium Bank | 462,7 | 653,3 | 760,3 | 692,2 | 685,1 | 393,6 | 570,1 | 508,1 | 437,0 | 471,7 |
| 11 | Muğanbank | 467,1 | 590,9 | 708,4 | 789,3 | - | 336,7 | 335,9 | 401,1 | 453,8 | - |
| 12 | Turan Bank | 456,4 | 551,7 | 715,0 | 820,8 | 822,8 | 258,3 | 351,2 | 436,4 | 548,5 | 629,4 |
| 13 | Yapı Kredi Bank Azerbaycan | 438,5 | 348,3 | 394,8 | 481,9 | 514,9 | 118,6 | 149,4 | 174,9 | 236,9 | 291,8 |
| 14 | AFB Bank | 489,3 | 281,4 | 272,2 | 282,4 | 330,7 | 162,7 | 182,2 | 142,8 | 170,9 | 180,1 |
| 15 | AG Bank | 411,6 | m/y | - | - | - | 250,4 | m/y | - | - | - |
| 16 | Nikoil Bank İKB (indiki Yelo Bank) | 387,9 | 390,9 | 533,7 | 821,5 | 1566,5 | 239,6 | 308,3 | 446,0 | 621,9 | 764,3 |
| 17 | Exspressbank | 315,2 | 313,5 | 351,4 | 437,0 | 560,2 | 186,6 | 209,7 | 261,4 | 297,1 | 409,3 |
| 18 | Azər Türk Bank | 330,2 | 359,2 | 407,3 | 965,2 | 995,5 | 116,7 | 167,3 | 233,6 | 321,7 | 447,4 |
| 19 | Bank BTB | 265,8 | 356,1 | 362,1 | 374,2 | 369,2 | 142,2 | 206,1 | 262,1 | 265,8 | 187,1 |

*Cədvəl 4-ün ardı*

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 20 | Ziraat Bank Azərbaycan | 184,5 | 299,0 | 388,1 | 528,9 | 636,7 | 67,2 | 158,3 | 231,2 | 317,6 | 390,9 |
| 21 | Amrahbank | 181,0 | m/y | - | - | - | 94,7 | m/y | - | - | - |
| 22 | Naxçıvanbank | 134,6 | 298,6 | 343,8 | 346,5 | 206,2 | 61,5 | 117,1 | 140,9 | 173,6 | 130,7 |
| 23 | Günay Bank | 186,1 | 245,0 | - | - | - | 116,1 | 190,9 | - | - | - |
| 24 | Bank Avrasiya | 155,1 | 159,7 | 167,4 | 224,3 | 184,5 | 74,0 | 112,6 | 114,2 | 125,4 | 137,2 |
| 25 | Bank VTB (Azərbaycan) | 178,4 | 187,3 | 232,3 | 238,5 | 250,0 | 97,1 | 125,9 | 165,1 | 159,8 | 289,9 |
| 26 | Bank Melli İran Bakı filialı | 100,5 | 93,7 | 86,9 | 96,8 | - | 3,4 | 5,2 | 9,8 | 12,9 | - |
| 27 | Pakistan Milli Bankı NBP Bakı filialı | 11,7 | 12,5 | - | - | - | 2,2 | 0,9 | - | - | - |
| 28 | Ata Bank | 615,8 | m/y | - | - | - | 460,0 | m/y | - | - | - |
| 29 | Bank of Baku | 399,8 | 409,6 | 497,5 | 701,2 | 870,9 | 219,3 | 337,9 | 413,9 | 577,5 | 659,0 |
| 30 | NBC Bank | 197,4 | m/y | - | - | - | 140,2 | m/y | - | - | - |

*Mənbə: Bank sektoru. ABA. https://aba.az/banklar/toplu/.*

Cədvəl 4-ün təhlilindən yanaşsaq, ölkədə cəmisi 9 bankın aktivləri 1 mlrd. manatdan çoxdur və əvvəldə də bildirdiyimiz kimi buna baxmayaraq, banklarımızın aktivlərinin artırılması problemləri hələ də qalmaqdadır. Məsələ burasındadır ki, aktivləri zəif olan bank sistem əhəmiyyətli banklar sırasında baxıla bilməz və ya bu məsələ çoxlu sual doğurar. Sistem əhəmiyyətli bankın güclü kapitalı, daim artan aktivləri, balanslaşdırılmış və diversifikasiyalaşdırılmış kredit portfeli, risklər və faiz dərəcələri üzrə optimal strategiyası olmalıdır.

**5. Maliyyə xidmətləri bazarının dayanıqlılığının gücləndirilməsində sistem əhəmiyyətli bankların strateji rolu**

Baxılan elmi müddəa isə: "*Azərbaycanın maliyyə xidmətləri bazarının yeni dayanıqlılıq elelmentlərinə və mexanizmlərinə ehtiyacı vardır və bu proseslərdə sistem əhəmiyyətli bankların əhəmiyyəti strateji xarakter daşıyır*"- ibarətdir.

Sistem əhəmiyyətli bankların digər mühüm bir funksiyası da ölkədəki biznes proseslərin yaxşılaşdırılmasında, pul axınlarının daha səmərəli idarə olunmasında fəal iştirakına ehtiyacın olmasıdır. Məsələn, ölkənin mühüm sistem əhəmiyyətli banklarından olan Paşa Bankda bu məsələlərə ciddi önəm verilir[10]. Bütün bu amillər nəzərə alınmaqla sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarında strateji funksiyalarının müəyyənləşdirməsi və onların xüsusiyyətlərinin ümumiləşdirilməsi maraqlı olardı və bunlar şəkil 5-də verilmişdir.

[10]Kazımov, T. Azərbaycanda bank sektorunun ümumi vəziyyəti. EcoVision, 28-ci sayı, [Elektron resurs] / Bakı. – 2016. – S.27. http://atib.az/EcoVisyon-28.pdf.




**Şəkil 5. Yeni çağırışlar şəraitində maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların strateji funksiyaları və onların xüsusiyyətlərinin**

**6. Azərbaycanda maliyyə xidmətləri bazarının təkmilləşdirilməsi və sistem əhəmiyyətli bankların fəaliyyətinin genişləndirilməsi**

Burada elmi müddəa kimi götürülmüşdür: "*Azərbaycanda bank sektorunun və sistem əhəmiyyətli bankların dayanıqlılığında və maliyyə sabitliyinin təmin edilməsində problemlər vardır və bu problemlərin həlli istiqamətində qlobal böhranlardan yaranan yeni çağırışlara uyğun mexanizmlərinin tətbiqi vacibdir".*

Qeyd edək ki, Bank Nəzarəti üzrə Bazel Kommitəsinin banklar üçün müştərilərlə bağlı lazimi ehtiyat tədbirləri üzrə standartlarda və yanaşmalarda bank risklərinin sistemli şəkildə öyrənilməsi, müştərilərin maraqlarının nəzərə alınması və qorunması məqsədilə tələb olunan tədbirlərin müəyyənləşdirilmiş mexanizmlər əsasında prinsipial şəkildə həyata keçirilməsi mütləq şərtlər kimi bildirilmişdir[11].

Sistem əhəmiyyətli bankların səmərəli fəaliyyət göstərməsi, ilk növbədə bankların əsaslandırılmış fəaliyyət strategiyasının olması və uzunmüddətli dövrü əhatə edən strateji hədəflərin müəyyənləşdirilməsi ilə bilavasitə əlaqəlidir. Ölkə bankları Azərbaycandakı makroiqtisadi və makromaliyyə sabitliyi imkanlarından bəhrələnərək öz inkişaf strategiyalarını formalaşdırmalı və maliyyə sabitliyi mexanizmlərini yaratmalıdırlar. Bu amillər baxımından, sistem əhəmiyyətli bankların dayanıqlılığının artırılması və onların maliyyə xidmətləri bazarında multiplikativ rolunun genişləndirilməsi tədbirləri daha da intensivləşdirilməlidir.

**7. Yeni çağırışlara uyğun olaraq maliyyə xidmətləri bazarının inkişafında sistem əhəmiyyətli bankların səmərəliliyinin yüksəldilməsi yolları. Bununla bağlı başlıca elmi müddəa:** *Yeni çağırışlar şəraitində, o cümlədən pospandemiya dövründə, işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi konteksində və strateji yol xəritəsindən irəli gələn vəzifələrin icra proseslərində ölkənin maliyyə xidmətləri bazarının dayanıqlılığının gücləndirilməsində sistem əhəmiyyətli bankların rolunun artırılması üçün məqsədli fəaliyyət proqramının hazırlanmasına və reallaşdırılmasına zərurət yaranmışdır və s.*

Ölkə banklarının 2016-2023-cü illər üzrə strateji fəaliyyət istiqamətləri və prioritetlərində əsas hədəflər sırasında bank sektorunun

[11]Banklar üçün müştərilərlə bağlı lazimi ehtiyat tədbirləri. Bank Nəzarəti üzrə Bazel Komitəsi. [Elektron resurs] / http://www.fiu.az.

dayanıqlılığının təmin olunması və sistem əhəmiyyətli bankların rolunun daha da gücləndirilməsi, o cümlədən bank sisteminin beynəlxalq keyfiyyət parametrlərinə uyğunluğun təmin olunması, korporativ idarəetmənin keyfiyyətinin qiymətləndirilməsi və banklarda şəffaflığın daha da artırılması diqqət çəkmişdir[12]. Bundan əlavə, ölkə Prezidentinin 28 noyabr 2019-cu il tarixli Sərəncamı ilə maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi istiqamətində yeni tədbirlər müəyyənləşdirilmişdir[13]. Həmin Sərəncamla Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv olunmuş və onun funksiyaları yenidən Mərkəzi Banka qaytarılmışdır.

İşğaldan azad olunmuş ərazilərin inkişaf etdirilməsi, dirçəldilməsi məsələləri həm də güclü maliyyə təminatından, bir sözlə, maliyyə xidmətlərinin bazarının inkişafından bilavasitə asılıdır və hesab edirik ki, bu proseslərdə sistem əhəmiyyətli banklar mühüm funksiyaları yetirə yetirə bilərlər. Düzdür, artıq son dörd ildə, yəni 2021-2024-cü illər üzrə qəbul olunan dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin bərpası üçün müvafiq vəsaitlər nəzərdə tutulmuşdur. Artıq bu məqsədlər üçün 14 mlrd. manata yaxın vəsait ayrılmışdır və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qaytarılması proseslərini özündə əks etdirən Böyük Qayıdış üzrə I Dövlət Proqramı intensiv olaraq icra edilməkdədir. Bundan əlavə, yenə AR Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i müəyyənləşdirilmişdir[14]. Bunlarla yanaşı, ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanına əsasən işğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır[15]. Bütün bunlar yaxın perspektivdə maliyyə xidmətləri bazarının genişləndirilməsi və bu proseslərdə sistem əhəmiyyətli bankların rolunun artırılması üçün ciddi

[12]Azərbaycan Banklar Assosiasiyasının 2016-2020-ci illər üzrə strateji planı. ABA. – Bakı: – 2015. – 12 s.

[13] Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı // Bakı: – 28 noyabr 2019-cu il. – № 1616.

[14]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

[15] Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 07.07.2021.

perspektivlər və güclü potensial formalaşdırmaqdadır.

**8. Dissertasiya işinin nəticəsi olaraq bir qrup elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələri ümumiləşdirmişik:**

1. Maliyyə, maliyyə sistemi, maliyyə xidmətləri bazarının səmərəlilik və inkişaf problemlərinin kompleks şəkildə araşdırılması təmin olunmalı, bu konteksdə müasir dövrdə maliyyə sisteminin optimallığı və onun qlobal çağırışlara cavab verməsi dövlətin strateji vəzifəsinə çevrilməlidir.
2. Bank fəaliyyətinin yeni Bazel standartlarına uyğunlaşdırılması və bankların maliyyə sabitliyinin qlobal çağırışlar nəzərə alınmaqla, yeni mexanizmlərinin hazırlanması və tətbiqi vacibdir.
3. Hər bir sistem əhəmiyyətli bankın antiböhran strategiyası olmalı və maliyyə dayanıqlılığı mexanizmlərinin uzunmüddətli qlobal çağırışlara hazırlığı ciddi şəkildə sınaqdan keçirilməli və qiymətləndirilməli, maliyyə ehtiyatları formalaşdırılmalı və bu qəbildən olan bankların kapitallaşma səviyyəsinin adekvatlığına xüsusi diqqət yetirilməlidir.
4. Ölkəmizdə fəaliyyət göstərən bir qrup sistem əhəmiyyətli banklarının mövcud göstəricilərinin təhlilindən və inkişaf xüsusiyyətlərindən çıxış etməklə, bu bankların maliyyə xidmətləri bazarının intensiv inkişafında rolunun strateji səviyyədə olduğunu qeyd edə bilərik. Belə ki, bizə görə, sistem əhəmiyyətli banklar maliyyə xidmətləri bazarının əsas yükünü çəkirlər, bundan əlavə onların kredit portfeli və bank xidmətləri strukturu, fliallar şəbəkəsi digər banklarla müqayisədə daha çox diversifikasiyalaşdırılmış və geniş potensiala malik olurlar. Sistem əhəmiyyətli bankların investisiyalar yatırmaq imkanlarının olması da onların üstün cəhətlərindəndir.
5. İşğaldan azad olunmuş ərazilərdə bərpa və dirçəliş layihələrinin maksimum intensiv olaraq həyata keçirilməsi məqsədilə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında maliyyə-kredit və bank infrastrukturunun inkişaf etdirilməsi konsepsiyası işlənilməli və bununla əlaqədar olaraq, sistem əhəmiyyətli bankların müasir texnologiyalar əsasında, xüsusilə rəqəmsal mexanizmlər və "ağıllı

texnologiyalar" üzrə daha çevik bank xidmətələrinin hazırlanması və maliyyə xidmətləri bazarına çıxarılması təmin edilməlidir.

6. Qlobal böhranlardan ortaya çıxan yeni çağırışlara adekvat olaraq, Azərbaycanda maliyyə xidmətləri bazarının dayanıqlılığının gücləndirilməsi və bu proseslərdə sistem əhəmiyyətli bankların rolunun müasir dövrün obyektiv tələbləri səviyyəsinə qaldırılması üçün "2025-2030-cu illərdə Azərbaycan Respublikasının maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların inkişafının sürətləndirilməsi üzrə Dövlət Proqarmı"nın qəbul edilməsini və həyata keçirilməsini əsaslandıraraq təklif edirik. Postpandemiya dövrünün tələbləri və işğaldan azad olunmuş ərazilərin bərpa-dirçəlik prioritetləri də nəzərə alınmaqla, bu strateji və məqsədli tədbirlər kompleksinin və dövlət proqramının hazırlanması zərurəti, həmçinin ölkədə maliyyə xidmətləri bazarının fəaliyyətinin intensivləşdirilməsində sistem əhəmiyyətli bankların rolunun artırılması ilə bağlı problemlər və məsələlər bir qrup konseptual yanaşmalar, həyata keçirilməsi vacib olan tədbirlər, hazırlanması və reallaşdırılması tələb olunan mexanizmlər baxımından diqqət çəkirlər və s.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:**


1. Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların strateji funksiyaları və fəaliyyət prinsipləri // AMEA, Elmi əsərlər jurnalı, – 2018. № 5, – s. 30-36.
2. Azərbaycanın maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların multiplikativ xüsusiyyətlərinin mühüm aspektləri // – Bakı: Geostrategiya jurnalı, – 2019. № 5, – s. 140-144.
3. Maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasında sistem əhəmiyyətli bankların strateji əhəmiyyəti // – Bakı: Audit – 2019. № 3, Cild 25, – s. 49-58.
4. Müasir dövrdə sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarının inkişafına təsiri // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda Respublika elmi konfransının

materialları. SDU, 25-26 aprel 2019, – s. 314-316.
5. Sistem əhəmiyyətli bankların inkişaf problemləri və onların maliyyə xidmətləri bazarına təsirinin qiymətləndirilməsi // – Bakı: AMEA, Elmi əsərlər jurnalı, –2019. № 2, – S. 85-91.
6. Роль системно значимых банков в стабилизации рынка финансовых услуг в условиях глобальных трансформаций// Technology and science, Issue: 01, Volume: 69. – 30.01.2019. – p. 238-244.
7. Важность системно значимых банков в стабилизации рынка финансовых услуг в условиях роста глобальных воздействий / Science and innovation. Steyr, Austria. 30.05.2019. – p.73-76.
8. Стратегическая важность системно значимых банков на рынке финансовых услуг в Азербайджане // Финансовая экономика, 2020 № 04. –с. 323-328.
9. Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəliliyinin nəzəri-metodoloji məsələləri // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı. –2021, № 04. –s.159-166.
10. Интегративно существенные банки: направления совершенствования на рынке финансовых услуг Азербайджана / Сборник Материалов II Международной Научно-Практической Конференции «Современные стратегии и цифровые трансформации устойчивого развития общества, образования и науки», Москва , 26 сентября 2022 года, – с. 276-284. https://www.elibrary.ru/item.asp?id=49569150.

Dissertasiyanın müdafiəsi  22 yanvar 2025-ci il tarixində saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində faliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın azəri və ingilis dilində elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Dissertasiya Şurası.

Avtoreferat 20 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.12.2024
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (39570 işarə)
Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552012809*